

# Zəhmətin bəhrəsini əyani şəkildə göstərən HOBBİ

## Rövşən Əsədov: “O çekləri sayanda vicdanım rahat olur”

Aygün ƏZİZ

**Aldığı məhsulların çeklərini saxlayır. Çekləri yığıb, xərclənən məbləğlə bağlı nələr edə biləcəyini hesablayır və gələcəklə bağlı planlar qurur. Deyir ki, gedən pullara görə heyfsilənmir. Ona görə ki, insan özü üçün xərclədiyi pulun ardınca baxmamalıdır. ”Hobbi” rubrikamızın qonağı ”Cümhuriyyət” qəzeti və Cebhe.info xəbər portalının mədəniyyət müxbiri Rövşən Əsədovdur.**

### "ÇEK YIĞMAQDAN ZÖVQ ALIRAM"

Rövşən iki ildən çoxdur ki, çek yığır. Əsasən böyük məbləğdə olan çekləri saxlayır. Hətta çeklər üçün pul miqdarı (məzənnə) də müəyyən edib: ”Adətən, böyük məbləğdə olan çekləri saxlayıram. Yəni mağazadan çörək, su və s. xırda məhsullar alanda o çekləri az müddət saxlayıb, atıram. Amma iri məbləğdə, təxminən 10 AZN-dən daha çox olan çekləri saxlayıram”.

Həmsöhbətimiz deyir ki, pullarını necə qoruyursa, çekləri də xərclədiyi pullar qədər dəyərlidir: ”Çek yığmaqdan zövq alıram. Hətta, yeni çek əldə edəndə onu digər çeklərin olduğu qutuya atmaq üçün səbirsizlənirəm. Pulqabıma, yaxud çantamdakı dəftərin arasına qoyub evə gətirirəm ki, əzilməsin”.

### "ÇEK YIĞMAQ VƏRDİŞƏ ÇEVRİLDİ"

Rövşən indi sevimli məşğuliyyəti olan hobbisinə əvvəllər o qədər də ciddi yanaşmayıb. Lakin çek yığmaq sonradan vərdişə çevrilib: ”Açığını deyim ki, əvvəllər buna hobbi kimi yanaşmırdım. Sadəcə, bir müddət dövlət müəssisələrinə və digər mühüm yerlərə etdiyim ödənişləri saxlayırdım. Çünki sonradan müəyyən problemlər çıxırdı, bəzən ödənişlər qəbul edilmirdi. Mən də sübut etməkdə çətinlik çəkirdim deyə, məcbur olub çekləri saxlayırdım. Beləliklə, bu, bir vərdişə, daha sonra isə hobbiyə çevrildi. Artıq bundan xoşum gəlir və sevdiyim üçün yığıram”.

### "BU, MƏNİM ÜÇÜN ŞƏXSİ İŞDİR"

Müsahibimiz deyir ki, onun belə hobbisi olduğunu ətrafında heç kim bilməyib: ”Çek yığmaqla bağlı mənə heç bir söz deyən olmayıb. Çünki xərcləmişəm. Özüm üçün xərclədiyim pullara heyfim gəlmir”.

Hobbinin insana nə verdiyinə gəldikdə, Rövşənin sözlərinə görə, hobbi insana ruh sakitliyi, zövq verir: ”Hobbinin olması gözəldir. Amma bu o demək deyil ki, insan bütün işini, məşğuliyyətini atıb sırf hobbisinin arxasınca düşməlidir, xeyr. Bunu yaşamaq, paralel olaraq həyata keçirtmək lazımdır. Bu bir zövq, ruh sakitliyi məsələsidir. Məsələn, mən dəfələrlə oturub səbirlə o çekləri, çeklərdə olan pulları saymışam. Yazıb kənarda məbləği qeyd edirəm hətta. Evə əsəbi gələndə, yaxud stressli olanda, tez töküb çekləri sayıram. Çeklərdə olan pulları hesablayıram. Bu çox diqqət tələb edən bir məsələdir. Sayıb bitirəndə bir-iki manat yanlışlığa yol verəndə, ərinmədən bir də qarışdırıb, yenidən sayıram. Beləliklə, əsəblərim sakitləşir. Uşaq kimi bütün stressimi unuduram”.

### "ÖZ ZƏHMƏTİMİN BƏHRƏSİDİR"

Rövşən vurğulayır ki, çekləri sayanda sakitləşir və bu, onu xoşbəxt etməyə bəs edir: ”Mən çox sakitləşirəm o çekləri sayanda. Ən əsası, bilirsiniz mən etdiyim və gördüyüm işlər, şəxsi işlərimlə bağlı heç kimə məlumat vermirəm. Bu, mənim üçün şəxsi işdir. Digəri üçün maraqsız və zövqsüz ola bilər. Ona görə də bəzən şəxsi olanlar gizli qalsa, daha yaxşı olar. Bu hobbim də gizlidir. İlk dəfədir ki, belə bir hobbimin olduğunu deyirəm və bunu də evdəkilər oxusa, ilk dəfə sizin qəzetdən və saytdan xəbər tutacaqlar”.

### "UŞAQ KİMİ BÜTÜN STRESSİMİ UNUDURAM"

Həmsöhbətimiz çeklərə baxanda xərclədiyi pullara heyfi gəlmir: ”Heyfim gəlmir, amma xeyli düşünürəm. Düşünürəm ki, hazırda bu məbləğ əlimdə olsaydı, nələr edərdim, hansı problemlərimi, çözərdim. Bilirəm ki, onların əksəriyyətini özüm üçün, yeməyim üçün məni xoşbəxt edən nədir? O pulları mən qazanmışam, yağışda, qarda, bəzən dona-dona küçə-küçə düşüb reportajlar hazırlamışam, üşüyə-üşüyə hər hansı baş vermiş hadisəni çəkməyə getmişəm və onun müqabilində halal maaşımı almışam. Bu xərclədiyim pullar da hamısı zəhmətimin bəhrəsidir. Yəni o çekləri sayanda vicdanım rahat olur. Zəhmətimin əsl bəhrəsidir deyib, sakitləşirəm. Bəzən ailəm də mənə müəyyən maddi köməklik göstərir, amma bunu heç vaxt o çeklərə daxil etmirəm. Kiminsə mənim hobbimə necə baxacağı, necə qəbul edəcəyi məni qəti şəkildə maraqlandırmır. Kimlər üçünsə gülünc, maraqsız görünə bilər. Sadəcə, mən bunu sevirəm, edirəm, zövq alıram, bir ev daxilində olsa da, özümü xoşbəxt hiss edə bilirəm. Mənim üçün bu zövq yetər”.



---

# 3 ilin “Gəncliy”i



**Lalə MUSAQIZI, “Gənclik qəzeti” layihəsinə məsul redaktor**

## Sabaha boylanan “Gənclik qəzeti” gəncliyin özü kimi rəngarəngdir

Adımız **”GƏNCLİK QƏZETİ”** əlavəsi. Bu gün üç yaşımız tamam olur. Üç ildir, həftədə bir dəfə 135 illik tarixi olan ”KASPİ” qəzetinin içərisində sizin görüşünüzə gəlirik. Hər dəfə də yeni həyəcan, yeni mövzular, yeni gənc simalarla... Məqsədimiz gənc olan hər kəslə görüşə, paylaşa bilmək, gəncliyimizi gənclərimizə, cəmiyyətimizə tanıtmaq, onları düşündürən mövzulara işıq salmaq, azacıq da olsa, gənclərimizin daha yaxşı yönə dəyişməsində, inkişafında rol oynamaqdır.

Bu üç ildə 130 nömrəmiz işıq üzü gördü. Bu 130 nömrəmizdə sizi Gəncliyin hər üzü ilə tanış etməyə çalışdıq...

**”Uğur hekayəsi”**ndə karyerasında uğur əldə etmiş gəncləri arayıb axardıq... **”Diskussiya”** və **”Polemika”**da ən müxtəlif mövzularda gənclərimizin fikirlərini dinlədik...

Gənclərin toplaşdığı, özlərini ifadə etdiyi yerlərdən **”Reportaj”**lar hazırladıq...

Mədəniyyətimizi layiqincə təmsil edənləri **”İncəsənət”**də təqdim etdik.

Gənclərimizi düşündürən, onlar üçün vacib olan mövzuları **”Araşdırma”**da araşdırdıq...

**”Mənim balam”**, **”Mənim nəvəm”**də məşhurların balaları, nəvələri haqda düşüncələrini verdik.

Uzun, incə bir yol keçmiş, gəncliyini geridə qoymuş və həyatda istədiyinə nail olan insanların keçmişinə **”Keçmişdəki mən”**də boylandıq, bəlkə oradan hansısa məqamı örnək götürə bilərik deyə...

Görüb-götürülməli insanlarla **”Gör-götür”**də həmsöhbət olduq...

Azərbaycanı xaricdə yaşayaraq təmsil edən gənclərimizi **”Soydaş”**da, elmimizi irəli aparanları **”Alim”**də, yeni ideyaları ilə cəmiyyətimizə yeni nəfəs gətirənləri **”Startap”**da tanıtdıq. Xoşbəxt ailə tablosu yaradan gənc cütlüklərimizi də unutmadıq, **”Ailə”**də onların xoşbəxtliklərinin sirrini paylaşdıq...

Həmişə ”hamının ali təhsil alması məcbur deyil” deyirik. Bu fikrin nə qədər doğru olduğunu göstərmək üçün müxtəlif gənc sadə və modern peşə adamları ilə görüşdük. Göstərdik ki, yaxşı maşın ustası, saç ustası, dərzi, misgər, aşpaz olmaq diplomu suvenir kimi evə qoyub işsiz gəzməkdən, yaxud ürəyincə olmayan mövqedə çalışmaqdan daha yaxşıdır.

Bu üç ildə sizlərin sayənizdə bir daha əmin olduq ki, gənclik güc, hərəkət, gələcək, yeni nəfəs, ümid, cəsarət, fəth etmək, əyləncə, sevgi, xəyal, sərhədləri aşmaq, amma özü üçün sərhəd cızmaq deməkdir. Bu üç ildə sizə güvəndik, sizin yanımızda olduğunuza əmin olduq. Bundan sonra da bizimləsinizsə, nə gözəl BİZLƏRƏ...

Və bizlər demişkən, hər həftə ”Gəncliy”in yükünü çəkən kiçik kollektivimizi təqdim etməyi unutmayaq. Yazılarımızı redaktə edən baş redaktorumuz İlham Quliyev, redaktorlarımız Məğrur Əliyev və Natiq Muxtarlı, daim yenilik axtarışında olan, maraqlı gənclərimizi arayıb-axtarmaqdan yorulmayan müxbirlərimiz Aygün Əziz, Xəyalə Rəis, Aygün Asimqızı, Şəbnəm Mehdizadə, yazılarımıza gözəl forma verərək oxucularımıza təqdim edən dizayner İlham İsmayılov, müsahiblərimizin səsini kompyuterə köçürməkdə bizə yardım edən operatorlarımız Mərcan Rüstəmova və Dilbər Əlimədətova...

Ən xoş arzularla növbəti saylarımızda görüşənədək...